UNEC

**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

Təsdiq edirəm:
"Biznes və logistika" kafedrasının
müdiri: i.e.n.dos., M.Ə.ƏLİYEV

07 fevral 2025-ci il

**"KİÇİK VƏ ORTA SAHİBKARLIQ SUBYEKTLƏRİNİN İDARƏ EDILMƏSİ" fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| Fənnin kodu: | 00469 |
| Fənnin növü: | seçmə |
| Tədris ili: | 2024/2025 |
| Tədris semestri: | yaz |
| Fakültə: | Biznes və menecment |
| Qrup: | 62/64 |
| Tədris yükü: | 45 saat (mühazirə/məşğələ -30/15) |
| Kredit sayı: | 4 (dörd) |
| Kafedra: | Biznes və logistika |

## II. Müəllim haqqında məlumat


| | |
|---|---|
| Fənni tədris edən müəllim: | Vəfa Mahmudova, i.ü.f.d.,müəllim |
| E-mail ünvanı: | Vafa_Mahmudova@unec.edu.az<br>Vafa_mahmudova@mail.ru |
| İş telefonu: | (012) 4403367 |


## III. Kursun təsviri

Bu fənn, seçmə fənlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə kiçik və orta biznes subyektlərinin fəaliyyəti ilə bağlı zəruri baza biliklərini təqdim edir. Bazar iqtisadiyyatı kiçik biznesin təşkilinin və idarə olunması problemlərini ön sıralara çəkir. Bu, bir sıra səbəblərlə şərtlənir. Belə ki, kiçik və orta biznes istehlak bazarında rəqabət mühitinin formalaşmasına, iqtisadi artım tempinə, ümumi daxili məhsulun strukturuna və keyfiyyətinə əhəmiyyətli təsir göstərir, hormonik ictimai inkişafa səbəb olur.

Sahibkarlıq dünyası özünəməxsus qanunlara uyğun qurulur. Sahibkarlığın əsasını təşkil edən sosial ehtiyacların davamlı axtarışı və onlara davamlı uyğunlaşma, riskləri idarə etmək və dəyişən biznes mühitinə uyğunlaşma bacarığı olan sahibkarlıq subyektləri sahibkarlıq fəaliyyətində uğur qazanır.

Sosial münasibətlərin spesifik təzahür formalarından biri kimi sahibkarlıq cəmiyyətin maddi və mənəvi potensialının artmasına kömək edir, millətin birliyinə, milli ruhunun qorunub saxlanmasına, eyni zamanda, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün münbit şərait yaradır. Ölkəmizdəki mövcud vəziyyət onu göstərir ki, mütəşəkkil təşkil olunmuş sahibkarlıq olmadan iqtisadi inkişaf, təminatlı sosial həyat yoxdur.

"Kiçik və orta sahibkarlığın idarə edilməsi" fənnində bazar şəraitində həyata keçirilən kiçik və orta biznesin idarə edilməsinin praktiki məsələləri öyrənilir, sahibkarlığın aktual problemlərinə nəzər salınır. Bu fənnin səmərəli öyrənilməsi və yaxşı mənimsənilməsi məqsədilə sahibkarlığın əsasları, xüsusən sahibkarlığın forma və növləri, kiçik biznesin ölkə iqtisadiyyatında rolu və əhəmiyyəti, Kiçik və orta sahibkarlığın subyektləri, habelə kiçik müəssisələrin fəaliyyətində biznesin planlaşdırılması kimi; kiçik və orta müəssisələrin marketinq fəaliyyətinin təşkili, sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi, kiçik müəssisənin idarə edilməsinin mahiyyəti və prinsipləri nəzərdən keçirilir, kiçik müəssisədə menecerlərin rolu və əhəmiyyəti öyrənilir, kadrların idarəetmə üslubu və metodları araşdırılır; həmçinin sahibkarlıq mədəniyyəti və onun kiçik və orta müəssisələrin fəaliyyətinə təsirinin mühüm əhəmiyyəti barəsində tələbələrə zəruri biliklər verilir və bacarıqlar aşılanır.

## **IV . Fənnin məqsəd və vəzifələri**

"Kiçik və orta sahibkarliq subyektlərinin idarə edilməsi" fənninin tədrisinin əsas məqsədi tələbələrin sahibkarlıq fəaliyyətinin təşkili haqqında biliklərini formalaşdırmaq, tələbələrə kiçik və orta sahibkarlığın yaradılması və fəaliyyətinin təşkili üçün praktiki üsul və metodları öyrətmək, kiçik və orta müəssisələrin idarəetmə qərarlarının işlənib hazırlanması və səmərəliliyinin artırılması məqsədi ilə biznesin aparılması prinsipləri və metodları haqqında hərtərəfli biliklər verməkdir. Bunlara əsasən fənnin predmeti müəyyən edilmişdir.

Fənnin tədrisi prosesində tələbələrə bütün mövzular üzrə nəzəri biliklər verilir, nəzəri biliklərin tətbiqi xüsusiyyətləri kiçik və orta sahibkarlığın real təcrübəsi nümunəsində, müxtəlif davranış modellərinin tətbiqi imkanları və onların real biznes sahəsində müasir dünya təcrübəsinə əsaslanan nəticələri təqdim olunur. Tələbələrə yerinə yetirilən konkret tapşırıqlar əsasında təhlil aparmaq imkanı təqdim olunur.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- tələbələrdə kiçik və orta biznesin idarə edilməsinin əsasları haqqında tam anlayış formalaşdırmaq;
- təşkilatı biznes proseslərinin məcmusu kimi nəzərdən keçirmək;
- tələbələri təşkilati formanın formalaşmasında əsas yanaşmalarla tanış etmək ;

kiçik və orta sahibkarlığın inkişafı zamanı ortaya çıxan taktiki/strateji vəzifələri müəyyən etmək ;

- tələbələrə rəqabət mühitində kiçik və orta müəssisələrin davranış mexanizmlərini izah etmək;
-effektiv liderin keyfiyyətlərini kəşf etmək;
- tələbələrə sahibkarlıq fəaliyyətinin təhlili, kiçik və orta sahibkarlığın inkişafına təsir edən amillərin qiymətləndirilməsi sahəsində biliklər vermək, bacarıqları inkişaf etdirmək.

## *V. Öyrənmənin nəticələri*

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbə:

Bilməlidir:

- kiçik və orta sahibkarlığın əmlakının formalaşması və istifadə istiqaməti;
- kiçik və orta müəssisədə istehsal prosesinin təşkili;
- kiçik və orta sahibkarlığın iqtisadi siyasətinin təşkili;
- kiçik və orta sahibkarlığın inkişaf xüsusiyyətlərini;
- kiçik və böyük biznes arasında qarşılıqlı əlaqə yolları;
- kiçik və orta sahibkarlığın yaradılması və fəaliyyətinin dayandırılması üçün qanunvericilik bazası.

**Bacarmalıdır:**

- kiçik və orta müəssisələrin yaradılması və qeydiyyatı üçün təsis sənədlərini işləyib hazırlamağı;
- kiçik və orta müəssisələrin təşkilati strukturunu qurmağı;
- kiçik və orta müəssisədə biznes proseslərini ayırd etməyi;
- biznes mühitinin öyrənilməsi əsasında sahibkarlığın gələcək inkişafını proqnozlaşdırmağı .

**Mənimsəməlidir:**

- kiçik və orta sahibkarlığın vəziyyətinin, şəraitinin və fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinin müxtəlif təhlili üsullarını;
- kiçik və orta sahibkarlıqda nəzarət bacarıqlarını;
- kiçik və orta sahibkarlıq üçün vəsait çatışmazlığının səbəblərini müəyyən etmək yollarını;
- yeni məhsulun (xidmətin) inkişafı üçün alətləri.

## VI . Fənnin tədris metodologiyası

"Kiçik və orta sahibkarliq subyektlərinin idarə edilməsi" fənninin öyrənilməsi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## VII . Prerekvizitlər

Yoxdur

## VIII. Fənnin mühazirə mövzuları

1. Sahibkarlıq fəaliyyətinin formalaşmasının əsasları
2. Müasir dövrdə kiçik və orta sahibkarlığın inkişafı
3. Kiçik və orta sahibkarlığın subyektləri
4. Kiçik və orta biznesə dəstək sistemi
5. Kiçik müəssisələrdə məhsul istehsalının təşkili
6. Kiçik müəssisələrin marketinq fəaliyyətinin təşkili
7. Kiçik müəssisələrin maliyyə təminatı
8. Kiçik müəssisələrin idarə edilməsi
9. Kiçik müəssisələrdə idarə etmə üslubu
10. Kiçik müəssisənin heyətinin idarə edilməsi
11. Kiçik və iri biznesin inteqrasiya formaları
12. Kiçik müəssisələrin rəqəmsallaşması
13. Kiçik müəssisələrin rəqabət qabiliyyəti
14. Kiçik müəssisələrdə münaqişələrin idarə edilməsi
15. İşgüzar sahədə sahibkarlıq mədəniyyətinin rolu

## IX. Fənnin mühazirə materialları

mühazirə və təqdimatların zəruri tədris materialları və nümunəvi testlər elektron formada "Virtual Universitet" bölməsində ( www.vu.aseu.az ) yerləşdirilmişdir .
Universitetin elektron poçt ünvanı: www.unec.edu.az.

## X. Əsas dərslik və dərs vəsaitləri


1. Abbasov A.B., Abbasov S.A. "Kiçik və orta sahibkarlığın idarə edilməsi" Dərslik-Monoqrafiya. Bakı: "Elm və Təhsil" Nəşriyyatı, 2021.
2. Müəllif kollektivi. Biznesin təşkili və idarə edilməsi /Dərslik: "İqtisad Universiteti nəşriyyatı", 2011".
3. Abbasov A.B., Abbasov S.A. Biznesin əsasları, dərslik-monoqrafiya, Elm və təsil, Bakı,2017
4. Rəşad Muradov "Biznes etikası" Dərs vəsaiti. «İqtisad Universiteti» Nəşriyyatı, Bakı, 2017
5. Məmmədov K.M., Bədirov M.R., Bədirov R.R. «Biznes plan»,dərs vəsaiti Bakı, 2017
6. Can, Halil ve Güney, Semra. (2018). Genel İşletme. Ankara: Siyasal Kitabevi.
7. Tuncer, Doğan., Ayhan, Doğan Yaşar., ve Varoğlu, Demet. (2020). Genel İşletmecilik Bilgileri.
8. İRKECİ, O. (2013). Kobilere yeni yaklaşımlar-mikro işletmeler (kuruluş yönetim teşvikler). Gündoğan Yayınları.
9. Kaya, A. (2017). Bilişim ve İletişim Işığında Girişimcilik ve KOBİ Yönetimi. Eğitim Yayınevi.
10. Kiçik sahibkarlıq. Kiçik müəssisənin təşkili, inkişafı və idarə edilməsi: dərslik / elmi. red. Q.L. Baqiyeva, V.Y. Burova. - Moskva: İNFRA-M, 2020. - 582 s.
11. Soldatkina O. B. Kiçik biznesin iqtisadiyyatı və idarə edilməsi: dərs vəsaiti / O. B. Soldatkina. - Moskva; Berlin: Direkt -Media, 2021. - 327 s.
12. Scarborough, Norman M. Effektiv kiçik biznesin idarə edilməsi: sahibkarlıq yanaşması / Norman M. Scarborough—10-cu nəşr, 2012. 888 s.
13. Richard L. Daft , İdarəetmə, Sankt-Peterburq, 2017
14. Şıxverdiyev A.P. Kiçik və orta biznesdə rəqabət qabiliyyətinin idarə edilməsi. - Sıktıvkar: SyktGU, 2012

**İnternet resursları:**

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin saytı: www.economy.gov.az
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin saytı: www.stat.gov.az
3. Azərbaycan Respublikasının qanunvericilik sənədləri üzrə elektron resurs: http://e-qanun.az/
4. Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin saytı: https://smb.gov.az/az

## X. Mövzuların tematik bölgüsü və məzmunu

| Həftə | Mövzunun adı | Mövzunun əsas məzmunu |
|---|---|---|
| 1 . | Sahibkarlıq fəaliyyətinin formalaşmasının əsasları | Sahibkarlığın təkamülü<br>Sahibkarlığın funksiyaları<br>Sahibkarlığın formaları və növləri<br>Sahibkarlığın formalaşmasının mühüm şərtləri |
| 2. | Müasir dövrdə kiçik və orta sahibkarlığın inkişafı | Kiçik biznesin ölkə iqtisadiyyatında rolu və əhəmiyyəti<br>Kiçik və orta sahibkarlıq subyektlərinin müəyyən edilməsi meyarları<br>Kiçik sahibkarlığın üstünlükləri və çatışmazlıqları |
| 3. | Kiçik və orta sahibkarlıq subyektləri | Kiçik və orta müəssisələrin yaradılması qaydası<br>Fərdi sahibkarın xüsusiyyətləri<br>Hüquqi şəxslərin xüsusiyyətləri<br>İstehsal kooperativləri<br>Xarici ölkələrdə kiçik biznesin inkişafı təcrübəsi |
| 4. | Kiçik və orta biznesə dəstək sistemi | Kiçik və orta sahibkarlığa dövlət dəstəyinin məqsəd və vəzifələri<br>Kiçik və orta sahibkarlığa dövlət dəstəyinin metod və formaları<br>Azərbaycanda KOS-ların inkişafının müasir vəziyyəti |
| 5. | Kiçik müəssisələrdə məhsul istehsalının təşkili | İstehsal prosesi və onun xüsusiyyətləri<br>İstehsalın tipləri və onların xüsusiyyətləri<br>İstehsal prosesinin təşkili metodları |
| 6. | Kiçik müəssisələrin marketinq fəaliyyətinin təşkili | Müasir marketinqin mahiyyəti<br>Marketinqin məqsəd və vəzifələri<br>Marketinq funksiyaları<br>Bazarın seqmentasiyası |
| 7 . | Kiçik müəssisələrin maliyyə təminatı | Kiçik müəssisələrin maliyyələşdirilməsi<br>Kiçik və orta sahibkarlığın mikromaliyyələşdirilməsi<br>Kiçik müəssisələrin fəaliyyətində mikrokreditləşdirmə<br>Kiçik müəssisələrdə maliyyə və vergi dəstəyinin formaları |
| 8. | Kiçik müəssisələrin idarə edilməsi | Kiçik biznesin idarə edilməsinin mahiyyəti və prinsipləri<br>Kiçik müəssisədə idarəetmə funksiyaları<br>Kiçik biznesdə menecerin əsas əməliyyatları |

| | | |
|---|---|---|
| **9 .** | Kiçik müəssislərdə idarə etmə üslubu | Rəhbərin şəxsi keyfiyyətləri<br>İdarə etmə üslubunun anlayışı<br>İdarə etmə üslubunun modifikasiyaları |
| **10.** | Kiçik müəssisənin heyətinin idarə edilməsi | Heyətin idarə edilməsinin mahiyyəti<br>Heyətin seçilməsi<br>Kiçik müəssisənin heyətinin idarə edilməsi üsulları<br>Heyətin işində motivasiyanın rolu |
| **11.** | Kiçik və iri biznesin inteqrasiya formaları | Françayzinq kiçik və iri biznes arasında əməkdaşlıq forması kimi<br>Lizinq<br>Vençur kapitalı |
| **12.** | Kiçik müəssisələrin rəqəmsallaşması | Rəqəmsallaşmanın mahiyyəti<br>Biznesin rəqəmsallaşmasının amilləri və mərhələləri<br>Biznesin rəqəmsallaşmasının reallaşması şərtləri<br>Kiçik biznesdə rəqəmsallaşmanın tətbiqinin əhəmiyyəti |
| **13.** | Kiçik müəssisələrin rəqabət qabiliyyəti | Kiçik müəssisələrin rəqabət qabiliyyəti<br>Kiçik müəssisələrin rəqabət qabiliyyətinin artırılması<br>Kiçik müəssisələrin rəqabətdə uğur amilləri<br>Rəqabət strategiyalarının növləri |
| **14.** | Kiçik müəssisələrdə münaqişələrin idarə edilməsi | Münaqişənin mahiyyəti<br>Münaqişələrin səbəbləri<br>Münaqişələrin növləri<br>Münaqişələrin həlli üsulları |
| **1 5.** | İşgüzar sahədə sahibkarlıq mədəniyyətinin rolu | Biznes mədəniyyətinin mahiyyəti<br>İşgüzar etika<br>Korporativ mədəniyyət<br>Etik lider və onun iş perfomansındakı rolu |

**XI. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbə semestr ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır. Davamiyyət tələbənin aktivlik balının toplanmasında əhəmiyyət kəsb edir.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XII. Sərbəst işlər (Qrup işi): nəzərdə tutulmayıb.**

## XIII. Fənn üzrə qiymətləndirmə

| | | |
|---|---|---|
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | Yaxşı | C |
| 61-70 bal | Kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahan yazı üsulu ilə keçiriləcəkdir. Tələbəyə ümumilikdə 75 sual təqdim olunacaq. Qiymətləndirmə 5 sual olmaqla 2 asan (hər bir sual 5 bal), 2 orta (hər bir sual 10 bal) və 1 çətin (20) bal qiymətləndiriləcək.

Qeyd: Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

**Tərtib etdi:** **i.ü.f.d. V.O.Mahmudova**

